# İslam İnqilabının Ali Rəhbəri İraqın baş nazirini qəbul etdi - 21 /Jul/ 2020

İslam İnqilabının Ali Rəhbəri bu gün (çərşənbə axşamı) günortadan sonra İraqın baş naziri cənab Mustafa əl-Kazimi ilə görüşdə İran və İraq arasındakı əlaqələrin zəngin tarixi, dini və mədəni ortaqlıqlara, ortaq adət və ənənələrə əsasən, sözün həqiqi mənasında qardaşcasına olduğunu dedi: "İkitərəfli münasibətlərdə İran İslam Respublikası üçün ən çox əhəmiyyət daşıyan məsələ İraqda şəraitin yaxşılaşması, regional güc, maraqlar, mənfəətlər, təhlükəsizlik və izzətdir".

Həzrət Ayətullah Xamenei vurğuladı ki, İranın heç vaxt İraqın daxili işlərinə qarışmaq niyyəti olmamış və olmayacaq da: "İran izzətli, müstəqil və ərazi bütövlüyü, vəhdət və daxili birliyi qorunub saxlanan İraq istəyir".

İslam İnqilabının Rəhbəri dedi: "İran İraq dövlətinin zəifləməsinə səbəb olan hər bir şeyə qarşıdır".

Həzrət Ayətullah Xamenei əlavə etdi: "Əlbəttə, amerikalıların İraqla bağlı mövqeyi İranın mövqeyinin tam əksidir. Çünki ABŞ sözün həqiqi mənasında düşməndir və İraqda müstəqil, güclü və əksəriyyətin səsinə əsaslanan hökumətin olmasını istəmir".

O vurğuladı: "ABŞ üçün İraqın baş nazirinin kim olması önəmli deyil. Onlar Səddam devrildikdən sonra İraqın amerikalı rəhbəri Pol Bremer kimi bir idarəçinin olmasını istəyirlər".

İslam İnqilabının Rəhbəri dedi: "İran İraqın ABŞ-la olan münasibətlərinə qarışmır, lakin iraqlı dostlarımızın ABŞ-ı tanımasını, ABŞ-ın hər hansı ölkədəki varlığının korrupsiya və dağıdıcılığın mənbəyi olduğunu bilməsini istəyir".

Həzrət Ayətullah Xamenei vurğuladı: "İran İslam Respublikası İraq hökuməti, xalqı və parlamentinin amerikalıların çıxarılması ilə bağlı qərarının həyata keçirilməsini istəyir. Çünki onların mövcudluğu qeyri-sabitliyə səbəb olur".

O, ABŞ-ın general Süleymani və Əbumehdi əl-Mühəndisə qarşı törətdiyi terror cinayətinin amerikalıların İraqdakı mövcudluğunun nəticələrindən olduğunu dedi: "Onlar sizin qonağınızı evinizdə öldürdülər və açıq şəkildə bu cinayəti törətdiklərini etiraf etdilər. Bu kiçik bir məsələ deyil".

İslam İnqilabının Rəhbəri vurğuladı: "İran İslam Respublikası bu hadisəni heç vaxt unutmayacaq və mütləq amerikalılara cavab zərbəsi vuracaqdır".

Həzrət Ayətullah Xamenei cənab əl-Kaziminin hökumətini seçmək üçün İraqın siyasi hərəkat və qruplarının bir araya gəlməsinin bəyənilən bir addım olduğunu dedi: "Amerikalılar və onların əlaltıları daim region ölkələrində güc boşluğunun olmasını, bununla da hərc-mərclik düşməsini və özlərinin müdaxiləsi üçün zəmin yaranmasını istəyirlər. Eynilə Yəməndə də bu işi gördülər və hal-hazırda Yəmənin təəssüf doğuran vəziyyətini hamı görür".

Əl-Kaziminin hökumətini dəstəklədiyini vurğulayan Ayətullah Xamenei dedi: "Ağıl, din və təcrübə İran və İraqın bütün sahələr üzrə əlaqələrinin əvvəlkindən daha çox inkişaf etdirilməsini tələb edir".

İslam İnqilabının Rəhbəri əlavə etdi: "Əlbəttə, İran və İraq arasındakı əlaqələrin inkişafına qarşı olanlar var və onların başında Amerika durur. Lakin ABŞ-dan qətiyyən qorxmaq lazım deyil, çünki heç bir qələt edə bilməz".

Həzrət Ayətullah Xamenei dedi: "Amerikalılar çətinliklər və narahatlıqlar yaradırlar. Lakin İraq dövləti bu

çətinliklərə baxmayaraq öz yolunu tam güclə davam etdirməlidir və xalqı öz hamisi kimi qorumalıdır”.

Mərceyi-təqlidlərin və şəxsən Ayətullah Sistaninin İraq üçün böyük bir nemət olduğunu vurğulayan Ali Rəhbər əlavə etdi: “Həşdi-Şəbi də İraq üçün qorunması vacib olan digər böyük nemətdir”.

Prezidentin birinci müavini cənab Cahangirinin də iştirak etdiyi bu görüşdə İraqın baş naziri cənab Mustafa əl-Kazimi İslam İnqilabının Rəhbəri ilə görüşün böyük bir xoşbəxtlik olduğunu dedi və ayrı-ayrı mərhələlərdə, xüsusilə İŞİD və təkfirçi qruplaşmalarla döyüşdə İrana sərgilədiyi mövqelərə və verdiyi dəstəklərə görə təşəkkürünü bildirərək dedi: “İraq xalqı İranın dəstəklərini heç vaxt unutmayacaq. Həqiqət budur ki, təkfirçilərlə döyüşdə iraqlılarla iranlıların qanı bir-birinə qarışdı”.

İraqın baş naziri vurğuladı: “İran və İraq arasındakı əlaqələr Əhli-beytə qarşı (ə) sevgi sayəsində dərin və uzun tarixi, mədəni və dini köklərə əsaslanır”.

İraqın baş naziri Mustafa əl-Kazimi habelə İslam İnqilabının Rəhbərinə dedi: “Zat alilərinin nəsihətləri problemlərin həllinin açarına bənzəyir və mən bu göstərişlərinizə görə sizə təşəkkür və minnətdarlığımı edirəm.”

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**